

Azərbaycan-Gürcüstan enerji sisteminin perspektivləri ilə bağlı memorandum imzalanıb.

“Azərenerji” ASC-dən AZƏRTAC -a bildirilib ki, ASC-nin prezidenti Baba Rzayev dekabrın 18-də Azərbaycanda səfərdə olan “Gürcüstan Dövlət Elektrosistem” ASC-nin idarə heyətinin sədri David Tvalabeişvili ilə görüşüb. Görüşdə Azərbaycan-Gürcüstan elektroenergetika sisteminin mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, tərəflər arasında mövcud olan müqavilə münasibətləri və 330 kilovoltluq ikidövrəli ötürücü xəttinin inşası üzrə müzakirələr olub.